# Azərbaycan-Türkiyə münasibətləri yeni hədəflərə doğru



*İyunun 10-da Ankarada Prezident İlham Əliyevin türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub. Dövlət başçıları iki ölkə arasında qardaşlıq, dostluq və müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini məmnunluqla vurğulayıblar.*

Görüşdə tərəflər arasında enerji, nəqliyyat, iqtisadiyyat, ticarət əlaqələrinin genişləndirilməsi, müdafiə, hərbi sənaye və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olunub. Bakı-Tbilisi-Qars dəmir yolunun imkanlarının genişləndirilməsi xüsusilə qeyd edilib, eləcə də Orta Dəhlizin inkişafı ilə əlaqədar iki ölkənin birgə həyata keçirdiyi fəaliyyətin zəruriliyi diqqətə çatdırılıb. Həmçinin Türk Dövlətləri Təşkilatının və qardaş ölkələrimiz arasında əməkdaşlığın inkişaf etdirilməsi və Şuşada keçiriləcək qeyri-rəsmi Zirvə görüşünün əhəmiyyəti bir daha qeyd olunub.

**(davamı 3-cü səhifədə)**

# Azərbaycan-Türkiyə münasibətləri yeni hədəflərə doğru



(əvvəli 1-ci səhifədə)

Görüşdə regional və beynəlxalq məsələlər ətrafında da fikir mübadiləsi aparılıb. Dövlət başçılarının sözügedən toplantısından əlavə, eyni gündə iki ölkənin xarici işlər nazirləri Ceyhun Bayramov və Hakan Fidan telefonla danışıb, Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev Ankarada Türkiyənin vitse-prezidenti Cövdət Yılmazla fikir mübadiləsi aparıb. Görünür, tərəflərin bölgədəki mövcud durumla bağlı müxtəlif mövzuları müzakirə etmələrinə ehtiyac yaranıb. Bu da təəccüblü deyil. Çünki dünya böyük bir transformasiyadan keçir və bu dövrdə iki qardaş ölkə birgə addımlar atır.

Azərbaycan və Türkiyə bir-birinə dərin tarixi-mənəvi köklər ilə bağlıdır. Hazırda ikitərəfli əlaqələr ulu öndər Heydər Əliyevin söylədiyi kimi, məhz "Bir millət, iki dövlət" prinsipinə əsaslanır. Təsadüfi deyil ki, bu gün iki ölkə arasında münasibətlərin təməlində xalqlarımızın qardaşlığı və liderlərin siyasi iradəsi dayanır. Azərbaycan və Türkiyə xoş günlərin, zəfərlərin sevincini həmişə birlikdə bölüşürlər. İki ölkənin və xalqın dostluğu, qardaşlığı çətin günlərin sınağından keçərək möhkəmlənib. Qardaş ölkə artıq tarixdə qalan Qarabağ münaqişəsində həmişə Azərbaycana dəstək verib. Biz Türkiyənin qətiyyətli dəstəyini 44 günlük Vətən müharibəsi zamanı bir daha gördük. Müharibənin ilk günlərindən başda qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğan olmaqla əksər yüksək səviyyəli rəsmiləri Türkiyənin Azərbaycanın yanında olduğunu bildirən bəyanatlarla çıxış etdilər. Türkiyənin bu mənəvi-siyasi dəstəyi Azərbaycana güc verdi və özünəinam hissini artırdı. Nəticədə, Silahlı Qüvvələrimiz 44 günlük müharibədə şanlı qələbə qazanaraq respublikamızın ərazi bütövlüyünü təmin etdi. Postmüharibə mərhələsində də qardaş Türkiyə Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə başladığı genişmiqyaslı bərpa işlərində yaxından iştirak edir. Öz növbəsində, ölkəmiz də rəsmi Ankaraya ən çətin vaxtlarında qardaş dəstəyi göstərib. Belə ki, ötən ilin fevralında qardaş ölkə dəhşətli zəlzələ ilə silkələndi. Azərbaycan bu çətin günlərdə Türkiyəyə ilk yardım əli uzadan ölkə olub. Zəlzələnin ilk günü Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Türkiyəyə lazımi dəstək üçün bütün imkanlar səfərbər olunub. Bundan başqa, birinci xanım Mehriban Əliyevanın göstərişi ilə Heydər Əliyev Fondu da Türkiyənin zəlzələ bölgəsinə humanitar yardım edib. Eyni zamanda bütün vətəndaşlarımız öz imkanları daxilində yardımlar edərək türk xalqı ilə çətin günlərdə həmrəylik nümayiş etdiriblər.

Bunların fonunda Azərbaycan-Türkiyə əlaqələrinin yüksələn xətt üzrə inkişaf etməsi hər iki respublikanın tərəqqisinə öz təsirini göstərir. Hazırda Türkiyə Azərbaycanın ən böyük iqtisadi tərəfdaşıdır. 2023-cü ildə Türkiyə ilə ticarət dövriyyəmiz 7 milyard 650 milyon ABŞ dollarınadək yüksəlib. Bu, 2022-ci illə müqayisədə 30 faiz artım deməkdir. Hədəf yaxın illərdə ticarət dövriyyəsini 15 milyard dollara çatdırmaqdır. Bu ilin ilk rübündə isə ölkələr arasındakı ticarət dövriyyəsi 1 milyard 469 milyon dollar olub. Tərəflər qeyri-enerji sektoru üzrə də əməkdaşlığı gücləndirirlər. İki ölkə arasındakı sərmayə qoyuluşlarında da kəskin artımlar müşahidə edilir. Göründüyü kimi, iqtisadi əlaqələr bütün istiqamətlərdə inkişaf etməkdədir. Sosial sahədə də təmaslar uğurla davam etdirilir. Belə ki, fevralın 19-da Ankarada Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan-Türkiyə sənədlərinin imzalanması mərasimi olub. Tədbirdə "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Türkiyə Respublikasının Ali Təhsil Şurası arasında Türkiyə-Azərbaycan Universitetinin yaradılmasına dair Anlaşma Memorandumu" imzalanıb. Türkiyə-Azərbaycan Universitetinin yaradılması yeni bir modeldir. Bu ali təhsil müəssisəsi iki ölkənin birliyini qoruyacaq, gənclərin yetişdirilməsinə xidmət edəcək. O cümlədən xaricdə təhsil almaq istəyən vətəndaşlarımızın ən çox üstünlük verdiyi ölkənin Türkiyə olduğu faktını nəzərə alanda, yeni qurulacaq universitet abituriyentlərimiz üçün alternativ olacaq. Tələbə, professor-müəllim mübadiləsi, birgə tədqiqatlar, innovativ layihələr ilə hər iki ölkə üçün qarşılıqlı faydalı ali təhsil təcrübəsi formalaşacaq.

Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, TANAP kimi meqalayihələr qardaş ölkələrlə yanaşı, bütün bölgənin inkişafına mühüm töhfələr verir. Azərbaycan və Türkiyənin beynəlxalq və regional təşkilatlar, o cümlədən İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və Türk Dövlətləri Təşkilatı çərçivəsində koordinasiyalı fəaliyyəti, bir-birinə qarşılıqlı dəstəyi parlaq bir örnəkdir. Azərbaycan-Türkiyə əlaqələrinin belə yüksək inkişafı regionun ümumi tərəqqisinə, sabitliyin bərqərar olmasına güclü təminat yaradır. Bu münasibətlər, həmçinin türkdilli ölkələr və xalqlar arasında birliyin, əməkdaşlığın gücləndirilməsini şərtləndirən ən mühüm amillərdən birinə çevrilib.

Bu gün bütün dünyada Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın olan başqa iki dövlət yoxdur. Bu doğmalıq olduqca geniş sferanı əhatə edir. Bütün bunların fonunda şübhəsiz ki, Azərbaycan və Türkiyə respublikaları arasındakı əlaqələr gün keçdikcə daha çox inkişaf edəcək, iki ölkə birlikdə yeni uğurlara imza atacaq.

**Jalə QASIMZADƏ,**
**"Respublika".**